# Ballıca doğma sakinlərini qarşılayır

**Qarabağın ətəklərində, Xocalı rayonunun gözəl və sükunətli təbiətində yerləşən Ballıca kəndi bir çox tarixi hadisələrə şahidlik etmişdir.**

Kənd adını ərazisindən axan çaydan, çay isə ballıca, yaxud öfkəotu bitkisindən alıb. Ballıca vaxtilə öz məşhur balı ilə də ətrafa səs salıb. Ola bilsin ki, bu, arının ballıca bitkisindən çəkdiyi xüsusi şirə ilə bağlı olub. Bu anlamda Ballıca adını balın məkanı kimi də qəbul etmək olar. Bu kəndin hər daşında, hər küncündə Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsinin simvolları öz əksini tapır.

**(davamı 13-cü səhifədə)**

# Ballıca doğma sakinlərini qarşılayır





(əvvəli 1-ci səhifədə)

XIX əsrin əvvəllərinə qədər Gəncə qəzasının Əhmədbəyli kəndinin əhalisi Ballıcada ənənəvi yaylaq həyatı qurmuş, kəndin bərəkətli torpağından və mülayim iqlimindən faydalanmışlar. Lakin bu xoşbəxtlik çox uzun çəkməmiş, Ballıca kəndi çar Rusiyasının Qafqaz siyasəti nəticəsində 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan və Osmanlıdan ermənilərin Qarabağ torpaqlarına köçürülməsi ilə, 1992-ci ildən 2020-ci ilə kimi erməni vandalizminə məruz qalmışdır. "Dağlıq Qarabağ"da separatçı rejim tərəfindən onun adı dəyişdirilmiş və Ayqestan adlandırılmışdır. 2023-cü ildə igid əsgərlərimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 19-20-də Qarabağda lokal antiterror tədbirləri həyata keçirdikdən sonra Ballıca düşmən tapdağından azad edilib. Şanlı zəfərimizdən sonra Ballıcanın illərdir baxımsız qalmış, kol-kos basmış yollarından mənfur düşmənlərimizin izləri təmizlənmiş, kənddə sürətli abadlaşdırma işləri aparılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış proqramı çərçivəsində 2024-cü ildə qəlbi bu torpaqlarla döyünən, bu yurdun əsl sahibləri doğma torpaqlarına yenidən qədəm qoymağa başladılar. İlk mərhələdə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşanlar kəndə yola salındı. Keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkür etdilər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər və bu yolda canlarından keçən bütün şəhidlərimizə rəhmət dilədilər. Ballıcada hər hansı bir köhnə evin, sükunət içində dayanan bir ağacın, ya da yavaş-yavaş bərpaolunan bir yolun arxasında çox dərin mənəvi yük dayanır. Bu kəndin torpaqları əsrlər boyu qəhrəmanlar yetirmişdir. İndi bu torpaqlar yenidən öz haqqını almış, onun hər bir qarışı öz sahibinə geri qaytarılmışdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdış prosesinin uğurla davam etməsi ölkəmizin gələcək rifahının və gücünün göstəricisidir. Fevralın 24-də uzun illərin acı xatirələrini geridə qoyan 22 ailə, 95 nəfər Ağdamdan Xocalıya doğru yola düşdülər. Onların sevincinin həddi-hüdudu yox idi. Bu mərhələ də daxil olmaqla, Ballıcaya ümumilikdə köçürülən ailələrin sayı 112-yə (562 nəfərə) çatıb. Günün daha xoş və yaddaqalan hadisəsi isə dövlət başçısının sakinlərlə səmimi görüşü oldu. Prezident İlham Əliyev hər zaman olduğu kimi, bu dəfə də öz xalqına olan yaxınlığını, hörmətini və qayğısını sübut etdi.



İllərdir axan göz yaşları dayanıb, vətən eşqi artıq qəlbimizdə yara deyil. Qarabağda görülən işlərin miqyasına baxdıqca xalqımız qürur duyur, bu möhtəşəm işlərin memarı Prezident İlham Əliyevə minnətdarlığını ifadə edir. Ballıcalılar da yurdlarına dönüb əbədi xoşbəxtliklərinə qovuşdular. Vətənimizin hər guşəsində Böyük Qayıdışın sevinci yaşanır.

**F.ƏLİYEVA,**
**"Respublika".**

Respublika .-2025.- 25 fevral (№ 42).- S.1;13.